# FHN-in bəzi yanğın təhlükəsizliyi məsələləri ilə bağlı vətəndaşlara müraciəti

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətlərinə uyğun olaraq, ölkədə yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir. Bu çərçivədə, Xidmət tərəfindən yanğın təhlükəsizliyi qaydaları ilə əlaqədar aparılan kütləvi maarifləndirmə işlərinə baxmayaraq, heyvandarlıqla məşğul olan vətəndaşlar tərəfindən tədarük edilən və tez alışma xassəsinə malik quru otun yaşayış evləri və yardımçı tikililərin çardağına, eləcə də tikililərin bilavasitə yaxınlığına, hava elektrik xətlərinin altına və digər yanğın təhlükəli ərazilərə yığılması kimi hallara tez-tez rast gəlinir. Bununla da yanğın təhlükəsizliyi qaydalarının tələbləri kobud şəkildə pozulur ki, nəticədə ağır fəsadlara səbəb olan yanğın hadisələri baş verir. Belə ki, elektrik naqillərində baş verən qısaqapanma, odla ehtiyatsız davranma və digər səbəblər ot tayasının asanlıqla yanmasına və qısa müddətdə genişlənərək böyük faciələrə gətirib çıxarır. Qış yem bazasının formalaşması üçün hazırda ot tədarükünün davam etməsini nəzərə alaraq qeyd olunanlarla bağlı Fövqəladə Hallar Nazirliyi bir daha heyvandarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşları yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırır. Xüsusilə nəzərə alınmalıdır ki, mövcud normalara əsasən, qaba yemlərin toplanması zamanı ot tayası ilə tikililər arasında ən azı 50 metr, elektrik xətləri ilə 15 metr, avtomobil yolları ilə 20 metr ara məsafəsi gözlənilməlidir.

**İstirahət üçün təbiətə üz tutan vətəndaşlar**

Qızmar yay günlərində əhali xüsusən həftəsonu istirahət məqsədilə kütləvi şəkildə təbiət qoynuna üz tutur, meşə və meşəətrafı ərazilərdə, o cümlədən ağaclıq sahələrdə sərinlənməyə üstünlük verir. Bu zaman bəzi insanların yanğın təhlükəsizliyi qaydalarına etinasız münasibəti və ya məsuliyyətsizliyi sonda yanğınların baş verməsinə səbəb olur, acı nəticələrə gətirib çıxarır. Havanın hazırda müşahidə olunan yüksək temperaturu isə kiçik bir alovun qısa müddətdə böyük yanğına çevrilmə riskini xeyli artırır. Qeyd olunanlarla bağlı xüsusilə qarşıdan gələn həftəsonunda insanların şəhər kənarına, meşə və meşəətrafı ərazilərə gözlənilən kütləvi səfərlərini nəzərə alaraq, Fövqəladə Hallar Nazirliyi bir daha əhalini yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət etməyə çağırır. Nəzərə alınmalıdır ki, təbiət qoynunda istirahət zamanı yanar mayelərlə islanmış materialların, eləcə də şüşə qab və şüşə qırıntılarının, tam söndürülməmiş siqaret kötüyü və kibritin yerə atılması, ətrafın zibillənməsi, meşə sahələrində ocaq yandırılması tamamilə yolverilməz olmaqla açıq ərazilərdə baş verən yanğınların əsas səbəblərindəndir.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

# Azərbaycan əlifbası və Azərbaycan dili günü hər birimizin qürur mənbəyidir

VII-VIII əsrlərdə də ərəblərin işğalına məruz qalmış və alban əlifbası ilə yazılan abidələr tamamilə məhv edilmişdir. O vaxtdan ərəb əlifbası dilimizin fonetik sisteminə uyğun gəlməsə də, xalqımız onu dini əlifba kimi çox həvəslə tətbiq etdi. Hətta ana dilimizdə olan ilk yazılı abidə "Dədə Qorqud" da ərəb əlifbasındadır.

XIX əsrdə M.F.Axundzadə yeni əlifba uğrunda ardıcıl mübarizə aparmış, amma layihəsini həyata keçirə bilməmiş, bu məsələ ömrü boyu onu narahat etmişdir.

Daha sonralar Ə.Haqverdiyev yazırdı: "Ərəb əlifbasının türk və fars dillərinə uyğun olması hamıya məlumdur. Həmçinin bu əlifbanın öyrənilməsi, onunla yazmaq, xüsusən bu əlifba ilə yazılmış kitabları oxumaq nəinki cocuqlar, hətta savadlı şəxslərin çoxları üçün çətin məsələdir".

C. Məmmədquluzadə 1895-ci ildə Moskva və Peterburqa səfər edərkən öz xalqını daha geniş miqyasda maarifə cəlb etmək üçün yollar axtarmış, latın əlifbasına keçmək barədə danışıqlar aparmışdır. Lakin bu danışıqlar da nəticəsiz qalmışdır. (C. Məmmədquluzadə "Yeni yol" qəzetinin redaktoru olduğu müddətdə respublikada latın əlifbasının tətbiq olunması yollarında əsl fədakarlıq göstərmişdir).

Nəhayət, 1920-ci il dekabrın 30-da Azərbaycan XKS N. Nərimanovun təşəbbüsü ilə yeni əlifbaya keçmək haqqında qərar qəbul etdi. Lakin yeni əlifbaya keçmək o qədər də asan deyildi. Dilimizin fonetik sisteminə uyğun əlifba yaratmaq üçün çox güclü dilçi-filoloq alimə ehtiyac var idi. Bu alim Simferopoldan dəvət edilmiş professor B. Çobanzadə oldu. B. Çobanzadə Bakıya gələn kimi dərhal Yeni Türk Əlifbası (YTƏ) elmi şurasının sədri kimi fəaliyyətə başladı.

Bakıda 1926-cı il fevralın 26-da (martın 5-dək) I türkoloji qurultay çağırıldı. Qurultay yeni türk əlifbasını bəyəndi və ölkəmizdə yaşayan bütün türkdilli xalqlar, habelə Dağıstan xalqları üçün bu əlifbanı tətbiq etmək qərara alındı.

Lakin bu sevinc uzun sürmədi. Şəxsiyyətə pərəstiş dövrü başlandı. 1939-cu ildə məcburi surətdə rus qrafikasını, yəni kiril əlifbasını bizə qəbul etdirdilər. SSRİ dağılana qədər Azərbaycan xalqı bu bəladan yaxasını qurtara bilmədi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə klassik və müasir Azərbaycan ədəbiyyatı, xarici ölkələr ədəbiyyatından edilmiş tərcümə əsərləri, elmi-kütləvi əsərlər və s. nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir.

Dünyanın bütün guşələrinə səpələnmiş azərbaycanlılar hansı ölkədə yaşamalarından, hansı dildə danışmalarından asılı olmayaraq öz ana dilini unutmur və bu dili hifz eləyib qoruyur, inkişaf etdirirlər. Bu, bütün türk dünyasının ümummilli lideri Heydər Əliyevin öz xalqının övladlarına etdiyi tövsiyələrdən biridir: "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini mükəmməl bilməlidir. Xalqın, millətin öz ana dilindən əziz heç bir şeyi ola bilməz".

**"Qəbələ"**

# Avqust - tarixi günlər

**Azərbaycan əlifbası və Azərbaycan dili günü** - Azərbaycan Prezidenti Heydər Əliyev 2001-ci il avqustun 9-da fərman imzalamışdır və bu fərmana əsasən qeyd olunur.

Azərbaycan Kinosu günü - (1898). Azərbaycan Respublikasının mədəni inkişafı sahəsində kino işçilərinin xidmətlərini və 1898-ci il avqustun 2-də ilk kinosüjetlərin yaranmasını nəzərə alaraq Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən qeyd olunur.

**Hərbi donanma günü** - Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 1996-cı il 5 avqust tarixli fərmanına əsasən hər il qeyd olunur.

**Beynəlxalq gənclər günü** - 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda hər il avqustun ayının 12-sinin dünyada Gənclər günü kimi qeyd olunması qərara alınıb.

**Sərhədçilər günü** -1919-cu il avqustun 18-də Azərbaycan Parlamenti "Azərbaycan Respublikasının gömrük baxımından sərhəd mühafizəsinin təsis edilməsi haqqında" qanun qəbul etmişdir. Məhz bu qanunla da Azərbaycanda sərhədçiliyin tarixi başlayıb. Bu tarixin yaşadılması isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin 16 avqust 2000-ci il tarixli sərəncamı ilə 18 avqust Sərhəd Qoşunlarının peşə bayramı günü kimi təsis edilmişdir.

**Beynəlxalq Azərbaycan Muğamı günü** - Bu gün Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara musiqi festivalının rəhbərliyi tərəfindən qəbul edilmişdir.

## Qəbələ Dövlət Tarix-Bədii Qoruğu vakansiya elan edir

1. Baş fond mühafizi

Tələblər:

* Müvafiq sahə üzrə ali ixtisas təhsili
* İxtisası üzrə 3 ildən az olmayaraq iş stajı.

İş saatı həftənin 6 günü 9.00-17.00.

2. Bərpaçı rəssam

Tələblər:

* Ali ixtisas təhsili
* İxtisası üzrə 3 ildən az olmayaraq iş stajı

İş saatı həftənin 6 günü 9.00-17.00.

3. Ekskursiyaçı

Tələblər:

* Müvafiq sahə üzrə ali ixtisas təhsili
* İngilis və ya rus dilində sərbəst danışıq (iki dili də bilməsi arzuolunandır).
* İxtisası üzrə 3 ildən az olmayaraq iş stajı.

İş saatı həftənin 6 günü 9.00-17.00.

Göstərilən tələblərə uyğun namizədlər cv-lərini qebele_qoruq@inbox.ru <mailto:qebele_qoruq@inbox.ru> ünvanına göndərə və ya Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna yaxınlaşa bilərlər.

Ünvan: Qəbələ rayonu, Çuxur Qəbələ kəndi. Qəbələ Arxeoloji Mərkəzi.

Əlaqə: (055) 300-29-49




QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2023-cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 15 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## İTMİŞDİR

Qəbələ rayon Soltannuxa kənd sakini **Ağaquliyeva Elmira Ramiz qızının** adına olan MERKURİ-130 F-01 markalı, 00170298 zavod nömrəli **kassa aparatı** itdiyi üçün etibarsız sayılır.

**"Suryapı Az" MMC şirkətinə məxsus** 77 AT 534 nömrə nişanlı Great WALL Wingle 7 markalı Pick-up avtomobilinin **qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Vəndam qəsəbə sakini **Qəhrəmanov Habil Murad oğluna** məxsus 02 mart 2009-cu ildə Traktor və Digər nəqliyyat vasitələrini idarə etmək üçün verilmiş AB 013413 nömrəli **sürücülük vəsiqəsi** və Habil Qəhrəmanova məxsus **hərbi bilet** itdiyi üçün etibarsız sayılır.

Ukrayna Respublikası Daxili işlər Nazirliyi tərəfindən Azərbaycan Respublikası Qəbələ rayon Kötüklü kənd sakini **Əhmədova Günay Ələkbər qızına** 20 mart 2003-cü il tarixdə verilmiş **buraxılış vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.


Redaktor Azad Məmmədov.

*TƏSİSÇİLƏR:* Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1.100*